# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ HİDROPON ÜSULUNDAN İSTİFADƏ ETMƏKLƏ HEYVANDARLIQ SAHƏSİNDƏ İNNOVATİV TEXNOLOGİYANIN TƏTBİQİ

**Zöhrab Süleymanov, Mehriban Həsənova, Şəbnəm Abdullayeva**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, sebnem.abdullayeva106@mail.ru*

Məlum olduğu kimi, heyvandarlıq sahəsinin yem ehtiyatı və onların qidalanmasında yaşıl yem kütləsi və onun əlavə məhsulları yem payında xüsusi cəkiyə malikdir. Rasiyonda bu növ yemlərin olması məhsuldarlığa və heyvanların fizioloji vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir, cünki bu növ yemlər amidlərlə, vitaminlərlə, minerallarla və aktiv mayelərlə zəngin olduğundan qida dəyəri daha yüksəkdir. Hazırki şəraitdə heyvanları bu növ yemlərlə təbiətin ancaq yaşıllıq dövründə təmin etmək mümkündür. Müasir dövrün innovativ yeniliklərindən bəhrələnərək heyvanları qeyri-yaşıllıq dövründə də (payız, qış aylarında) yaşıl yemlə təmin etmək mümkündür ki, bu texnalogiya hidroponika üsulu ilə yaşıl yem istehsalı adlanır.

HİDROPONİKA – Torpaqdan istifadə etmədən nəm mühitdə müxtəlif bitki və taxıl toxumlarını cücərdərək cavan yaşıl kütlə istehsal etmək üsuludur. Bu üsulla toxumlar öz həcimini 5-7 dəfə artıraraq 10-20 sm hündürlüyündə yaşıl kütlə əmələ gətirir. Hidroponika texnologiyasının əsas iş pirinsipi $18^{0}$C temperaturda yüksək nəmlik şəratində və ya tez-tez suvarılmaqla yaxşı havalandırıldıqda ilk 1 gün qaranlıq mühitdə və sonradan süni işıq verildikdə 6-7 gün ərzində yaşıl ot kütləsi istehsal olunur. İlk əvvəl təmizlənmiş sağlam toxum 12 saat ərzində su verilərək şişirdilir və suyu süzülərək 5-7 saat dincə qoyulur. Hazır toxumlar 1 sm-dək qalınlığında paslanmayan və reyaksiyaya girməyən materialdan hazırlanmış tabaqlara yayılır. İkinci gündən başlayaraq cücərtilər aydın görünür, bu müddətdən sonra həmin rejimdə işıqlı mühitdə saxlanılır, sutqa ərzində 2-4 dəfə müxtəllif üsullarla suvarma aparılır, bir şərtlə ki, suvarIıldıqdan sonra toxumun suyu süzülməklə axıdılır.

Hidropon sistemin üstünlükləri:

1. Torpaqdan ümumiyyətlə istifadə edilmədən qapalı şəraitdə az sahədən istifadə etməklə (1 $m^3$ - 45 kq) və az vəsait sərf etməklə maya dəyəri ucuz, keyfiyyətli yaşıl kütlə ekoloji təmiz, tərkibcə zəngin, yedizdirilməyə hazır yaşıl kütlə istehsal olunur.
2. Torpaqda becərilən yaşıl yemdən fərqli olaraq otaq şəraitində becərilən yaşıl yemin kök sistemi də daxil olmaqla bütün orqanları heyvanlar tərəfindən iştahla yeyilir.
3. Hidropon sistemi ilə yetişdirilmiş yaşıl yem müxtəlif vitaminlərlə daha zəngindir ki, bununla orqanizmin vitaminlərə tələbatı tam ödənilir.
4. Cücərdilməyə qoyulmuş toxumların kütləsi 5-7gün ərzində 5-7 dəfə artır.
5. Yem rasionunda yaşıl yem payı olan heyvanlarda məhsuldarlıq nəzərə çarpacaq dərəcədə artır və tərkibi daha zəngin olur.Sağmal inəklərdə süd məhsuldarlığının 12-15% çəki, artımında 10%, yumurta istehsalında 12%-dək artımın olduğunu apardığımız tədqiqat işlərində sübut olunmuşdur.
6. Heyvanları qapalı şəraitdə saxlamaqla və yaşıl kütləni yedizdirməklə onların otarılması üçün əlavə işçi qüvvəsinin azaldılması mümkün olur, təbii otlaq sahələrində struktrunun pozulmasının, bitki örtüyünün məhv edilməsinin və ekoloji sistemə heyvanların mənfi təsirinin qarşısı alınır.
7. Fermer təsərrüfatlarında yem istehsalına çəkilən xərc azalır.
8. Hidropon üsulla hazırlanan yaşıl yem ev heyvanlarının həzm prosesini yaxşılaşdırır, digər yanaşı yemlərin həzmgediciliyini artırır.
9. Yaşıl yem bütövlüklə vitamin və minerallarla zəngindir.

Hidropon sistemlə alınan yasıl yem asidoz, ketoz və başqa xəstəliklərin profilaktikası üçün ehtiyac olan vitamin-minerallara olan tələbatı tam ödəyir. Belə ki, cücərdilmiş arpa dənində yerkökündən 23 dəfə artıq A vitamini, 22 dəfə artıq B vitamini, sitrus bitkilərindən 14 dəfə çox C vitamini vardır.

Hidropon sistemində yetişdirilən yaşıl yemdə protein və minerallar əsasən kök hissədə, vitaminlər isə gövdə hissəsində toplanır. Bu yemin təsiri ən tez quşlarda - 2 həftədən sonra, yumurtlama faizinin artması və tərkib keyfiyyətinin yaxşılaşması müşahidə olunur. İribuynuzlu heyvanlarda isə yemləməyə başlanıldıqdan 1,5-2 ay sonra canlı kütlədə, çəki artımında, südün miqdarında və onların keyfiyyət göstəricilərinin artması ilə müşahidə olunur. Xırdabuynuzlu heyvanlarda isə bu dəyişiklik 1 aydan sonra biruzə verir.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə də hidropon sistemlə alınan yasıl yemin tətbiqi ilə heyvandarlıqda məhsuldarlığın inkişaf etdirilməsi üçün çox geniş potensial imkanlar var.